# XƏZƏR ATLANTİDASI YADİGARLARI

# SOUVENIRS FROM CASPIAN ATLANTIS

MATM Arxeologiya fondunun materialları əsasında

Based on materials of NMHA Archaeological Fund

BAKI – 2020

Azərbaycan Milli Elmlər Akademiyası
Milli Azərbaycan Tarixi Muzeyi

Azerbaijan National Academy of Sciences
National Museum of History of Azerbaijan

*Milli Azərbaycan Tarixi Muzeyinin 100 illiyinə həsr olunur*

*Dedicated to the 100th anniversary of the National Museum of History of Azerbaijan*

Elmi redaktor:
*akademik Nailə Vəlixanlı*

Mətn:
*Nasir Quluzadə*

Foto:
*Qətibə Həsən*

Dizayn:
*Cəmilə Aşumova*

Tərcümə:
*İlkin Kəngərli*

Science editor:
*Academic Naila Vəlikhanli*

Text:
*Nasir Guluzadeh*

Photos:
*Qatiba Hasan*

Design:
*Jamila Ashumova*

Interpreter:
*İlkin Kangarli*

## Giriş

Xəzər dənizi dünyanın ən böyük qapalı su hövzəsi olsa da, akvatoriya ölçüləri, hidroloji xüsusiyyəti, yaranma və inkişaf tarixi onu göl deyil, məhz dəniz adlandırmağa imkan verir. Tarix boyunca Xəzər dənizi dəfələrlə öz sahil görünüşünü dəyişərək neçə əsrlərdir ki, Dünya okeanı ilə əlaqəsini itirmişdir. Suyun səviyyəsinin əsrlər boyu enib-qalxması Xəzər üçün səciyyəvidir. Məhz bu xüsusiyyət sahil boyunca meydana gəlmiş yaşayış məskənlərinin sonradan dəniz suları altında qalmasına səbəb olmuşdu.

Suyun çəkilməsi nəticəsində üzə çıxan yaşayış yerlərinin qalıqları və müxtəlif maddi mədəniyyət nümunələri ilə bağlı məlumatlar həm orta əsr, həm də sonrakı dövr müəlliflərinin əsərlərində kifayət qədərdir. Bunlardan Abbasqulu Ağa Bakıxanovun «Gülüstani-İrəm» əsərində Xəzər sahillərində yaşayış məskənlərinin qalıqları ilə bağlı verdiyi məlumat böyük maraq doğurur: «İnkar etmək olmaz ki, Bakı ölkəsində Bilgəh, Zirə, Bibiheybət və sair kəndlərdə və bəzi adalarda daşlar üzərində dənizə doğru gedən araba yolları görünür. Bakı şəhərində Hacı Ağahüseyn oğlu Hacıbabanın otağının yerində quyu qazdıqları zaman dəniz səthindən aşağıda daşla döşənmiş bir yol çıxmışdır. Bakı ilə Salyan arasında da, dəniz sahilində

## Introduction

Although Caspian Sea is renowned as the world's largest enclosed waterbody, number of factors including water area, hydrological regime and evolution history allow regarding it as sea aquatorium. Long time ago, Caspian Sea had lost its' connection with the World ocean's waters, and, throughout its' long running evolution history, had numerously changed its' shoreline borders. Caspian Sea is characterized by frequent seawater level fluctuations. Throughout the history of mankind, these natural changes had caused complete flooding of settlements which used to exist along Caspian shoreline.

Later, as the seawaters regressed, flooded town ruins often came to a surface, delighting chroniclers with their secrets exposed. A lot of medieval and more recent sources contain information on ruins and material heritage of such towns. One of these sources is the book "Gulustani-Iram" which was written by Abbasgulu Agha Bakikhanov and contained following compelling information on the ancient ruins exposed along Caspian shore: "It's undeniable that in Bilgah, Zira, Bibiheybat and other villages and islands of Baku there are roads that lead into the sea. In Baku, when a well was sank instead of the

təxminən səkkiz coğrafi mil aralı, suyun altında böyük bir şəhər vardır».

Tədqiqatçılar keçmişin bu izlərini qurunun nə vaxtsa bir hissəsi olmuş sualtı dərinliklərdə axtarmışlar. Ötən günlərin sirlərini bilmək, tarixin nişanələrini tapmaq, onların izlərinə düşmək marağı həmin tədqiqatçıları su hövzələrində axtarış aparmağa yönəltmiş, burada vaxtilə məskunlaşmış insanların həyat tərzi, məşğuliyyəti haqqında qiymətli material və məlumat toplamağa sövq etmişdi. Maraqlıdır ki, Xəzərsahili abidələrin tədqiqinə ilk dəfə 1840-cı ildə cəhd göstərən də məhz A.A.Bakıxanov olmuşdur. Belə ki, o, ikiyelkənli qayığı icarəyə götürərək, Bakı ilə Salyan arasında suyun altında olmasını ehtimal etdiyi böyük bir şəhərin axtarışına çıxmışdı. Sonrakı arxeoloji tədqiqatlar həmin yerdə, dənizin altında həqiqətən də şəhər xarabalıqlarının olmasını müəyyən etmişdi.

Xəzər sahillərində sualtı arxeoloji tədqiqatların aparılmasını iki mühüm amil şərtləndirir. Birinci amili yerüstü əlamətlərin və təsadüfi tapıntıların Xəzər sahillərində vaxtilə yaşayış məskənlərinin olmasına şəhadət verməsi zəruri edirdi. Bu amilin vacibliyini həmin yaşayış məskənləri ilə bağlı tarixi mənbələrdə olan məlumatlar da təsdiq edir. Xəzər sahillərində tədqiqatların aparılmasını zəruri edən ikinci amil isə bu ərazilərin arxeoloji baxımdan ümumiyyətlə öyrənilməməsi və ya qismən öyrənilməsidir.

Məhz buna görə 1968-ci ildə

former premises of Haji Aghahuseyn oglu Hajibaba, a buried block-stoned road had been discovered from below the seawater level. On the other hand, in the Baku-Salyan road's vicinities, there must be a large flooded town at about 8 miles inside the Caspian Sea".

Various researchers had been searching for these historical vestiges both onshore and on a nearshore seafloor. Driven by a thirst to trace signs and reveal secrets of the ancient history, they had thoroughly studied the water basins and obtained a lot of valuable material on the life and the activities of people who had previously lived in the flooded areas. It's a curious fact that the researches had been pioneered by A.A. Bakikhanov, who undertook first studies of Caspian shore's monuments back in 1840. On pursuance of his plan to discover the ruins he had previously mentioned in his book, Bakikhanov rented a sailboat and combed seawaters between Baku and Salyan. Those studies haven't resulted in any success, and the town's ruins have been discovered by later archaeological studies.

Implementing underwater archaeological studies on the Caspian seafloor relied on a couple of important factors. The first factor is presence of onshore signs and artefacts clearly speaking to the fact that there used to be a settlement. Significance of this factor is confirmed by historical sources, too. The second factor is level of the area's coverage by past archaeological investigations.

Xəzər akvatoriyasında sualtı arxeoloji tədqiqatların həyata keçirilməsi məqsədilə sualtı arxeoloji ekspedisiya təşkil olunmuşdu. Bu ekspedisiyaya rəhbərlik Milli Azərbaycan Tarixi Muzeyinin elmi əməkdaşı, arxeoloq Viktor Aleksandroviç Kvaçidzeyə həvalə edilmişdir. Tədqiqatlar Azərbaycan SSR Elmlər Akademiyası Coğrafiya İnstitutunun "Bakuvi", "Akademik Mirqasımov" və Bakı dənizçilik məktəbinin "Volodya Dubinin" gəmiləri vasitəsilə aparılmışdır.

Ekspedisiya 1969-1987-ci illər ərzində Xəzər akvatoriyasında genişmiqyaslı kəşfiyyat və qazıntı səciyyəli axtarışlar aparmış, xeyli sayda maddi mədəniyyət nümunəsi tapmışdır. Həmin nümunələr I Bəndovan, II Bəndovan, Səngi Muğan, Köhnə Bilgəh və digər Xəzərsahili abidələrin - Xəzər Atlantidasının yadigarlarıdır.

In 1968, underwater archaeological expedition had been commissioned to implement research in the nearshore waters of the Caspian Sea. Led by NMHA research officer, archaeologist Victor Ivanovich Kvachidze, studies were implemented with vessels "Bakuvi" and "Acad. Mirgasimov" provided by the Institute of Geography (Academy of Sciences of Azerbaijan SSR), and "Volodya Dubinin" provided by Baku Marine Technical School.

Lasting from 1969 through 1987, the eighteen year long expedition had implemented widescale research and excavation activities on the Caspian seafloor and discovered a lot of cultural artefacts from Bandovan I, Bandovan II, Sangi Mughan, Kohna Bilgah and other historical monuments of the Caspian Atlantis.



## Saxsı yadigarlar

Xəzər Atlantidasının yadigarlarının kəmiyyət baxımından əsas hissəsi saxsı məmulatıdır. Burada Şirvanın Güştəsfi bölgəsindəki I Bəndovan, II Bəndovan və Qırxçıraq abidələrindən tapılmış saxsı nümunələri üstünlük təşkil edir. Bununla yanaşı, saxsı nümunələri arasında Abşeron yarımadasından, daha dəqiq desək, Amburan burnu (Köhnə Bilgəh) akvatoriyasından tapılmış qablar və onların fraqmentləri də az deyil. Şirsiz və şirli olmaqla iki böyük qrupa bölünən həmin saxsı məmulatını təyinatına görə məişət və təsərrüfat qablarına, inşaat keramikasına və digər yardımçı avadanlıqlara ayırmaq olar.

Çox əlverişli coğrafi məkanda yerləşən, münasib iqlim şəraitinə və zəngin təbii sərvətlərə malik olan Azərbaycanın dulusçuluğun təşəkkülü və inkişafı üçün vacib olan xammal ehtiyatları baxımından da bəxti gətirmişdir. Demək olar elə bir bölgəmiz yoxdur ki, saxsı məmulatı istehsalı üçün yararlı olan gil ehtiyatları ilə zəngin olmasın. Aparılmış fiziki-kimyəvi analizlərlə sübuta yetirilmişdir ki, orta əsrlərdə Azərbaycan dulusçuları saxsı məmulatı istehsalı üçün zəruri olan başlıca xammalı – gili, bilavasitə öz yaşayış məntəqələrindəki və ya onların yaxınlığındakı yataqlardan tədarük etmişlər. Tədarük olunan gil, adətən əvvəlcə ələnir, daha sonra isə xüsusi quyularda tərkibinə su və saman qatışdırılmaqla həll edilərək qıcqırdılır və nəhayət münasib kütlə halına gətirilirdi.

## Earthenware

Major part of the archaeological findings collected from the Caspian Atlantis are the earthenware artefacts. The largest amount of these items had been discovered on Bandovan I, Bandovan II and Girkhchirag sites of Gushtasfi (Shirvan) area. Running second is the earthenware and its' fragments detected on Amburan burnu (Kohna Bilgah) site on the Absheron peninsula.

Divided into two major categories of glazed and non-glazed products, these artefacts are represented by regular crockery, building ceramics and other supplementary items.

Having highly advantageous geographic location, favourable climate and rich natural resources, Azerbaijan was also rich with the raw materials required for the organization and growth of the pottery. There is nearly no region in the country, which doesn't have rich deposits of appropriate clay. As confirmed by physiochemical tests, earthenware produced in the medieval Azerbaijan had been exclusively made from the clay extracted from the pottery's nearby deposits. Before going to a potter's wheel, extracted raw clay was usually crushed, mixed with water and straw, and stabilized until taking an appropriate form.

As confirmed by the studies, thick-walled earthenware like pans, pitchers and pots, had been usually produced from the mixture of porous fine-grained clay with a sand. Finer pottery like jugs, cans,

Tədqiqatlarla sübuta yetirilmişdir ki, orta əsrlərdə Azərbaycan dulusçuları əsasən qum qatışığı olan məsaməli və narın gil növlərindən istifadə etmişlər. Qum qatışığı olan məsaməli gildən qazan, təsərrüfat küpü, küvəc və iri qapaq tipli nisbətən qalın divarlı saxsı qablar hazırlamaq üçün istifadə edilmişdir. Kuzə, bardaq, dolça, kasa, boşqab, çıraq və digər zərif saxsı məmulatı isə bir qayda olaraq narın gildən hazırlanırdı.

Dulusçuluğun bu və ya digər bölgədə mövcudluğunu təsdiq edən dəlillərdən biri də dulus sobalarının tapılmasıdır. Elə Şirvan bölgəsində də saxsı istehsalını əks etdirən arxeoloji dəlillərə, o cümlədən dulus sobalarına I Bəndovan abidəsinin Xəzər sahili sahəsində də rast gəlinmişdir. Sualtı arxeoloji axtarışlar nəticəsində buradan həmçinin kürə ləvazimatı və istehsal çıxarları da aşkarlanmışdır.

Arxeoloji axtarışlar nəticəsində II Bəndovan şəhər yerində də dulus sobalarının qalıqlarına rast gəlinmişdir. Aşkar olunan 2 saylı dulus kürəsi özünün oval formasına və böyük ölçülərinə görə diqqəti cəlb edir. Buradan, həmçinin, dulusçuluğa aid istehsal tullantıları, müxtəlif növ saxsı qab çıxarlarının cəmləşdiyi topalar tapılmışdır. İstehsal çıxarlarının əhatə etdiyi sahə 1600 kv.m təşkil edirdi.

Sobaların içərisində və ətrafında, bəzən isə mədəni təbəqə yatımında dulusçu ləvazimatı, o cümlədən S-şəkilli gil qarmaqlar, gil çubuqlar, üçayaqlar və konusvari altlıqlar tapılır. Gil qarmaqlar və çubuqlar kürənin divarına keçirilərək,

bowls, trays and lamps, used to be made from microgranular clay.

Another indicator of well-developed ceramics production is the discovery of pottery kilns in the studied archaeological sites. From this perspective, detection of several kilns, as well as furnace equipment and potter's wheels on the Bandovan I site, is definitely a kind of such indicative for the entire Shirvan region.

Remains of a pottery kiln had been discovered on Bandovan II site, too. Together with large oval furnace (item #2), piles of different production wastes and pottery fragments, discovered facility covers the area of 1600 m2, and bears special historical value.

Inside and around the kilns, and sometimes in the surrounding cultural layer there were found various plotter's implements like S-shaped hooks, sticks, tripods and conical stands. When kilning jugs, cans and other pottery items with handles, potters used to hang them on fictile hooks and sticks that were mounted on walls of the furnace. On the other hand, tripods were used to kiln open-shaped glazed pottery like bowls, trays, milk jugs, etc.

*Non-glazed ceramics*. Collection has all types of the earthenware artefacts discovered from the archaeological sites of Caspian Atlantis. Mainly dating back to the developed Middle Age period and manufactured from clay with the help of the potter's wheels, nearly all of these artefacts are characterized by perfectly shaped


1

onlardan bardaq, dolça və digər qulplu qablar asılaraq bişirilirdi. Üçayaqlar isə şirli kasa, boşqab, xeyrə və s. açıq formalı qabların bişirilməsində istifadə olunurdu.

*Şirsiz keramika.* Xəzər Atlantidasının saxsı yadigarlarından ibarət böyük kolleksiyasında məişət qablarının bütün növlərinə rast gəlmək mümkündür. Əsasən inkişaf etmiş orta əsrlər dövrünün məhsulu olan, daha çox dulus çarxlarında yaxşıca durulaşdırılmış gildən hazırlanan bu yadigarlar formalarının mükəmməlliyi ilə seçilir. Onların gili bişirilmə zamanı bozumtul və qırmızımtıl-narıncı rəng almışdır. Lakin bəzi məmulatlar əldə formalaşdırıldığından bir qədər kobud və bəsit görkəmlidirlər. Bununla belə, tapılan şirsiz saxsı məmulatının nəfis nümunələri daha çoxdur. Bədii tərtibatlarına görə onların bir qismi saya, digər qismi isə naxışlıdır. Qablar, xüsusilə də qapaqlar yapma, kəsmə və basma

bodies with greyish and reddish-orange colours obtained during kilning. Of course, there are several examples of rough handmade artefacts too, but share of the formers prevails. Speaking about decorative design, some items are simple, while others are covered with decorations. Crockery, especially caps are covered with modelled, carved and blotted decorations. Some items even have glazed crockery fragments attached on their surface. Some jugs are covered with red engobe. Production process also applied polishing. Non-glazed earthenware is distinguished for the variety of shapes. The most interesting exemplars are pans, jugs, spheroconical vessels, oil lamps, caps and other pottery items for the everyday use.

One of the especially interesting artefacts is finely decorated aftafa-like container (Picture 1) discovered in 1974 on Bandovan I site. Narrow mouth of container is circled by an engraved line decoration. Narrow neck is followed by a shoulder covered with wavy ornaments and framed with engraved twin lines. Container has curvy handle attached to its' shoulder and mouth. The body is paunchy and circled with twin line decoration, while the basement is flat. The item has a height of 20 cm, mouth diameter of 4.6 cm and basement diameter of 13.5 cm.

Representing just small part of the collection, oil lamps are mainly in the incomplete form. The only exception is a polished off lamp (Picture 2) discovered in 1975 on Bandovan I site.

naxışlarla bəzədilirdi. Bəzilərinin üzərinə hətta şirli qab parçaları da qoyulurdu. Bəzi bardaqlar qırmızı anqobla örtülürdü. İstehsal prosesində cilalama texnikası da tətbiq olunurdu. Forma baxımından da şirsiz saxsı məmulatı müxtəlifliyi ilə fərqlənirdi. Onların arasında qazan, bardaq, küp, sferokonus, piydan, qapaq və s. bu qəbildən olan məişət və təsərrüfat qabları böyük maraq doğurur.

Xəzər Atlantidasının adları sadalanan bu yadigarları arasında bir ədəd aftafa tipli qab nəfis tərtibatına görə diqqəti cəlb edir (şəkil 1). 1974-cü ildə I Bəndovan ərazisində aparılmış arxeoloji axtarışlar zamanı tapılmış bu qabın ağız hissəsi dar olub, eninə cızma xətlə əhatələnib. Boğaz hissəsi də dardır. Çiyin hissəsi gövdəboyu daraqvari alətlə naxışlanıb və qoşa cızma xətlə haşiyələnib. Ağızla çiyin hissəyə hörükvari qulp yapılıb. Gövdəsi isə xaşalvaridir və ortasında eninə qoşa cızma xətt salınıb. Oturacağı yastı olan bu maye qabının hündürlüyü 20, ağız diametri 4,6, oturacaq diametri isə 13,5 sm-dir.

Şirsiz saxsı məmulatının kiçik bir hissəsini piydanlar təşkil edir. Piydanların demək olar hamısı natamam vəziyyətdədir. Onların arasında yalnız bir piydan nisbətən tamdır (şəkil 2). 1975-ci ildə I Bəndovan ərazisində tapılmış bu piydan forma baxımından da maraq doğurur. Əldə, bir qədər kobud şəkildə hazırlanmış bu piydanın gövdəsi yastı

This rough looking handmade lamp has a simple and flat tray-shaped body. Unique feature of the artefact is that it has two partition divided chambers, and a handle attached to the inner partition and the outer walls. This interesting lighting device has a height of 3.5 cm, body diameter of 27 cm and base diameter of 25 cm.

Another interesting artefact from the Caspian Atlantis is an earthenware with unknown intended use (Picture 3) discovered in 1971 on Bandovan I site. This handmade right-angled artefact has quite specific boat-like appearance. On one of its' narrow sides there is an upward looking projection. Remaining sides are short with cogged projections. Outer surface of the item is decorated with four pairs of waving double lines. Equipped with thick and flat basement, the item is 21.6 cm long and 10.5 cm wide.

The last but not the least non-glazed earthenware category is represented by pottery needles, remains of flawed products, billets, melting pots, furnace parts, etc.



2



3

tava şəklindədir. Lakin qədim dulusçu usta onun içində daha bir arakəsmə qaldırmaqla piydanı ikili qab şəklinə salmışdır. Bundan başqa gövdəboyu daxili arakəsmə ilə yan kənar divar arasına qulp rolunu oynayan zolaqlar yapılmışdı. Bu maraqlı işıqlandırma vasitəsinin hündürlüyü 3,5, gövdəsinin diametri 27, oturacağının diametri isə 25 sm-dir.

Xəzər Atlantidasının maraqlı yadigarlarından biri də təyinatı naməlum əşyadır (şəkil 3). 1971-ci ildə I Bəndovan ərazisindən tapılmış bu düzbucaqlı formalı qabın özünəməxsus görünüşü var; o əllə formalaşdırılmış, qismən qayığı xatırladır. Ensiz tərəflərindən biri yuxarıya doğru çıxıntılıdır. Daha digər yanları isə alçaq divarlı olub, dişcik şəklində çıxıntılıdır. Xarici səthinə cızma üsulu ilə dörd dalğavari qoşa xətt salınıb. Oturacağı qalın və düzdür. İndiyədək təyinatı naməlum qalan bu əşyanın

One earthenware mould arouses curiosity of the observers (Picture 4). Decorated with circular geometrical ornaments, it is 9.5 cm long and 8.5 cm wide.

Study of the described archaeological findings is important in terms of learning everyday life and handicraft traditions of the respective historical epoch.

*Glazed ceramics.* Another category of the collected earthenware includes enamelled pottery, mainly represented by broken items and their separate fragments. Inner surfaces of the majority of such artefacts are decorated with different (zoomorphic, geometrical, floral, anthropomorphic) ornaments. Out of 60 artefacts with zoomorphic decorations, there are 35 items with bird, 1 item with fish and 24 items with animal ornaments drawn on their respective surfaces. Additionally, two items are covered with both bird



4

uzunluğu 21,6, eni isə 10,5 sm-dir.

Şirsiz saxsı məmulatının sonuncu qrupu dulus millərindən, zay məhsul qalıqlarından, qursalardan, butələrdən, gil lövhəciklərdən, soba hissəsindən, və s. ibarətdir.

Saxsı məmulatlardan olan bir qəlib tamaşaçıların marağına səbəb olur (şəkil 4). Onun üzərində həndəsi üslubda iki dairəvi bəzək yeri var. Qəlibinuzunluğu9,5,eniisə8,5sm-dir.

Bu tapıntıların tədqiqi təmsil etdikləri dövrün təsərrüfatını, eləcə də sənətkarlığını bilmək baxımdan əhəmiyyətlidir.

*Şirli keramika.* Saxsı məmulatının digər hissəsini şirli qab nümunələri təşkil edir. Çoxusu sınıq və ya ayrı-ayrı hissələrdən ibarət olan bu qabların əksəriyyətinin daxili səthləri müxtəlif (zoomorf, həndəsi, nəbati, antropomorf) təsvirlərlə bəzədilərək şirlənmişdir. Hesablamalara görə Xəzər Atlantidasının yadigarları arasında şirli qablarda verilmiş zoomorf təsvirlərin 35-i quş, 24-ü müxtəlif heyvan, biri isə balıq rəsmlərindən ibarətdir. Təsvirlərin ikisini quş-balıq, birini isə siren rəsmləri təşkil edir. Bunlardan 1978-ci ildə I

and fish ornaments, and 1 artefact is decorated with picture of Sirins.

The most interesting artefact with zoomorphic ornaments is a glazed pottery fragment discovered in 1978 on Bandovan I site (Picture 5). Clay of this well kilned fragment has light-orange colour. An engobe covered inner surface is decorated with bird and floral ornaments carved against greenish-white background. The bird has dark-yellow coloured body and neck, and green coloured petal-shaped wing. On both sides of the bird, there are floral ornaments framed with green and dark-yellow lentiform stripes. The artefact's basement has a heel end. The fragment has a height of 5 cm and basement diameter of 10 cm.

Most of birds depicted on the glazed pottery items are the indige-



5

nous species. It is no wonder at all, as both Bandovan I and II sites are both located within the territory of Shirvan National Park – protected area known for the rich onshore habitats of flamingos, mute swans, coots, and offshore habitats of netta rufinas, common pochards,

Bəndovan ərazisindən tapılmış şirli qab parçası maraqlıdır (şəkil 5). Şirli qab parçası yaxşı bişirilmiş və gili açıq narıncı rəng almışdır. Onun daxili səthi anqoblanmış, yaşılımtıl ağ fon üzərində quş və nəbati təsvirləri cızılaraq şirlənmişdir. Quşun boynu və gövdəsi tünd sarı boya ilə rənglənmişdir. Qanadı ləçəkşəkilli və yaşıldır. Quşun qarşısında və arxasında yaşıl və tünd sarı rəngli lentvari zolaqlarla haşiyələnmiş nəbati təsvirlər işlənmişdir. Qabın oturacağı dabanlıdır. Ölçüləri – hündürlüyü 5 sm, oturacağın diametri isə 10 sm-dir.

Şirli qablarda verilmiş əksər quş təsvirləri yerli növlərdəndir və maraqlıdır ki, hazırda I və II Bəndovan orta əsr şəhər yerləri qoruq olan Azərbaycan Respublikasının Şirvan Milli Parkına daxildir. Onun ərazisində flaminqo, fısıldayan qu, qaşqaldaq, dərin su sahələrində isə qırmızıburun, qırmızıbaş, kəkilli və dəniz dalğıcları, müxtəlif ördək, cürə və yırtıcı quş növləri, eləcə də çox kiçik sahələrdə oturaq növ olan turac vardır. Müqayisəli araşdırmalar göstərir ki, Azərbaycanın şirli saxsı məmulatında bu quşlar dulusçu-rəssam tərəfindən əsasən firavanlıq və xoşbəxtlik rəmzi kimi verilmişdir. Demək olar ki, bütün saxsı məmulatında, xüsusilə şirli qablardakı quş təsvirləri bir-birləri ilə eyniyyət təşkil edir. Onların bəzədilməsində də eyni üsuldan istifadə olunmuşdu. Bütün hallarda quş təsvirləri profildən verilmiş, fiqurlarının cizgiləri eynidir. Belə ki, quşların baş və bədənlərinin ön hissəsi qonur-sarı, qanad, quyruq və ayaqlar isə yaşıl rəngdədir.

tufted ducks, different ducks, Eurasian teals, birds of prey, black francolin (it has very limited number of habitats worldwide), etc. As demonstrated by comparative research, all these bird pictures main-


6

ly symbolized happiness and prosperity. It is safe to say that bird pictures are the same on all pottery items. They all had been depicted from profile by using the same technique. All birds have brownish-yellow heads and chests, as well as green wings, tails and legs. Finally, white background of the decorations had been toned in the violet colour.

Another group of zoomorphic decorations is represented by animal pictures. Glazed earthenware fragment discovered in 1972 on Bandovan site is a good example to this pottery category (Picture 6). Clay of this well kilned item has a reddish-coffee colour. As the fragment remained undersea for quite a long period of time, its' engobe and

Bənövşəyi rəngdən isə ağ fonun boyanmasında istifadə olunmuşdur.

Şirli qablarda verilmiş zoomorf bəzəklərin digər qrupunu deyildiyi kimi, heyvan təsvirləri təşkil edir. 1972-ci ildə I Bəndovan ərazisindən tapılan, yaxşı bişirilmiş və gili qırmızımtıl qəhvəyi rəng almış şirli qab parçası da bu baxımdan maraqlıdır (şəkil 6). Uzun müddət dənizin dibində qaldığından müəyyən hissələrindəki anqob və şir təbəqəsi tökülmüşdür. Daxili hissəsində yaşılımtıl ağ fon üzərində cızma üsulu ilə mərkəzdə heyvan, onun ətraflarında isə nəbati təsvirlər çəkilmişdir. Heyvanın təsviri əsasən açıq qəhvəyi rənglə işlənmiş, sağ tərəfdən profili verilmişdir. Əlamətlərinə görə qaçan maralı xatırladan heyvanın quyruğu çox qısa, ucu isə şişdir. Ayaqları qaçış vəziyyətindədir. Maralın aşağısında tünd sarı və yaşıl boyalarla işlənmiş naxışlar, tünd qəhvəyi üç nöqtə qrupları verilmişdir. Hündürlüyü 8,5 sm, oturacağın diametri isə 11 sm olan bu qab parçasının oturacağı dabanlıdır.

Sonuncu mövzuya uyğun daha bir maraqlı tapıntı 1972-ci ildə I Bəndovan ərazisindən tapılmış şirli qab parçasıdır (şəkil 7). Qabın daxili səthinə yaşıl şir çəkilmişdir. Onun üzərində bir neçə balığın profildən stilizə edilmiş təsviri verilmişdir. Tünd qəhvəyi rənglə eyni üslubda işlənilmiş balıqlardan birinin təsviri tam, digərlərinki isə natamamdır. Qab parçasının oturacağı dabanlıdır. Maraqlı qab nümunəsinin hündürlüyü 2,5 sm, oturacağın diametri isə 8 sm-dir.

enamel cover had partly peeled off. Central part of the inner surface has an animal ornament framed with floral decorations, all carved against the piece's greenish-white background. Light-coffee coloured animal figure is pictured from a right-hand profile. Reminding of a deer on the run, the figure has very short tail with a swollen tip. Legs are in a running position. Bottom part of the figure is decorated with yellow and green coloured patterns and three groups of dark-coffee coloured pounced ornaments. Basement of this 8.5 cm tall artefact is flat with 11 cm diameter.

Another interesting artefact is a glazed pottery fragment de-



7

tected in 1972 on Bandovan I site (Picture 7). Inner side of the item is coated with green enamel and decorated with several stylized and dark-coffee coloured fish profiles. One of these profiles is preserved fragmentarily. 2.5 cm tall item has flat basement with 8 cm diameter.

Among glazed earthenware artefacts of the Medieval Azerbaijan, there are also the items decorated

Azərbaycanın orta əsr şirli saxsı qablarında mifoloji varlıqların - sirenlərin təsvirlərinə də rast gəlmək mümkündür. Saxsı məmulatında sirenlər əsasən qadınbaşlı və quşbədənli təsvir olunmuşdur. Bu cür təsviretmə islam ikonoqrafiyası üçün ənənəvi xüsusiyyət kəsb edir. Belə ki, qədim prototiplərdən qaynaqlanan siren obrazları orta əsrlərdə cəmiyyətin mənəvi və estetik tələbatına cavab verən yeni məzmun da əxz etmişdi. Çox güman ki, bu dövrdə təqdim olunan mifoloji varlıqlar ilahə Humayı (və ya Umayı) təcəssüm etdirirdi. Çünki qədim türk mifologiyasında xeyirxahlıq təcəssümü olan ilahə Humay da "quşa oxşar qadın məxluqu olub, göylərdə yaşayırdı". Artıq orta əsrlərdə Humay öz sahibinin xoşbəxtliyi və firavanlığı üçün çalışan personaja çevrilmişdi. Orta əsr incəsənət abidələrində siren başı tamaşaçıya tərəf çevrilmiş siluet şəklində təsvir olunmaqla, onun hərəkət vəziyyəti kompozisiya naxışlarının ümumi dinamikası ilə həmahənglik təşkil edirdi.



8

Bu baxımdan 1974-cü ildə I Bəndovan ərazisindən tapılmış şirli qab parçası üzərindəki təsvirinə görə böyük maraq doğurur (şəkil 8). Şirli

with figures of Sirin – mythological creature with the head of a woman and the body of a bird. It must be noted that such figures were traditional for the period's Islamic iconography, which had amended the Sirin's more ancient prototype so that it better complies with moral and esthetical demands of medieval Muslim community. There is a strong possibility that mythological creatures depicted on the period's ornaments had symbolized Humay (Umay) – benevolent goddess from the ancient Turkic mythology, which was usually described as a bird bodied female who lived in the heavens. In middle ages, the mythical being had turned into a talisman bringing happiness and welfare to its' owner. In different artefacts, Sirin used to be depicted from profile with her face facing the observer and her body in a movement that harmonized with general dynamics of a composition.

The most interesting artefact of this kind is an enamelled pottery fragment discovered in 1974 on Bandovan I site (Picture 8). Clay of this well kilned item is coloured light-orange. The inner surface is engobed and decorated with glazed profile of Sirin against white background. The enamel cover is partly destroyed, and so is the head of the mythical figure. The figure has dark-yellow coloured body and a tail in the air reminding of tail of a peacock. From the bottom, Sirin is surrounded by floral ornament. The fragment has flat basement with spiral-shaped Tamga . This rare artefact is 4.5 cm

qab parçası yaxşı bişmiş və gili açıq narıncı rəng almışdır. Daxili səthi anqoblanmış və ağ fon üzərinə cızma üsulu ilə insan başlı quş (siren) təsviri həkk olunaraq şirlənmişdir. Bəzi yerlərində şiri tökülmüşdür. Sirenin təsviri tam deyil. Əlamətlərinə görə qadın başını xatırladır. Sirenin gövdəsi isə tünd sarı rəngdədir. Onun quyruğu yuxarı qalxmış şəkildə olub, bir qədər tovuzquşunun quyruğunu xatırladır. Sirenin aşağı ətrafında yaşıl nəbati təsvir verilmişdir. Qab parçasının oturacağı dabanlıdır və ortası spiralvari damğalıdır. Bu nadir tapıntının hündürlüyü 4,5 sm, oturacağın diametri 11,5 sm-dir. Muzeyin arxeoloji kolleksiyasındakı siren təsvirli şirli qab nümunələrindən ikisi Qədim Gəncədən, biri isə orta əsr Beyləqan şəhər yerindən tapılmışdır.

Şirli qabların bəzi nümunələrində ərəb hərfləri ilə həkk edilmiş yazı nümunələri də vardır. Bəzi qabların üzərinə isə "nəsx" xətti ilə Qurandan ayələr fars dilində, şerlər, xoş və hikmətli sözlər yazılırdı. Bu da həmin dövrdə dulusçuların bilik səviyyələri və dünyagörüşləri haqqında geniş təsəvvür yaradır.

Belə qab nümunələrindən biri 1985-ci ildə I Bəndovan ərazisindən tapılmışdır. (şəkil 9) Uzunluğu 12,5 sm, eni isə 8 sm olan şirli qab parçasının üzərində həndəsi naxışlarla yanaşı, ərəb əlifbası ilə "Yusif Kasəkinin işidir (aməl)" yazılmışdır. Bu həmin dövrdə dulusçuluqda ixtisas bölgüsünün olduğunu, Yusifin kasaçılıqla məşğul olan usta kimi tanındığını göstərir. Ümumiyyətlə, həm I, həm də II Bən-



9

tall with basement diameter of 11.5 cm. The collection's three other pottery items with Sirin's picture were found in the ruins of the ancient Ganja (2 items) and Beylagan (1 item).

Some glazed pottery artefacts are decorated with writings in the Arabic alphabet, and others – with citings from Koran, fragments of Persian poems and wise sayings. All these decorations help with understanding knowledge and interests of the epoch's potters.

One such pottery artefact was discovered in 1985 on Bandovan I site (Picture 9). It presents 12.5 cm long and 8 cm wide glazed earthenware fragment decorated with geometrical decorations and the following inscription in the Arabic alphabet: "Work of Kasachi (plate-maker) Yusif" - the manufacturer's autograph. The writing stands for the fact that the division of duties had been already practiced by the time of the item's production, and that Yusif was locally known as a potter

dovan şəhər yerlərindən tapılmış saxsı qab parçalarında “dulusçu Yusif hazırlamışdır” kimi xüsusi imzalara tez-tez rast gəlinmişdir. Bu onu göstərir ki, Şirvanın Güştəsfi bölgəsinin dulusçuluq məktəbi daha çox onun ən görkəmli nümayəndəsi olan usta Yusiflə tanınır.

Yuxarıda təsviri verilmiş şirli qab nümunələrinin dövrünə gəldikdə, mütəxəssislər onları XI-XII əsrlərə aid edirlər. Həmin yüzilliklər də daxil olmaqla, ümumilikdə, IX-XIII əsrlər Azərbaycanın sosial-iqtisadi və mədəni həyatında inkişaf dövrü kimi səciyyələnir. Bu dövrün sənətkarlıq nümunələrində, xüsusilə saxsı məmulatında xalqın düşüncəsi, dünyagörüşü, hissləri və bədii zövqü özünü aydın şəkildə büruzə verir. Belə demək mümkünsə, bu dövrün bədii saxsılarında ornament, kalliqrafiya və təsvirlər bir-biri ilə həmahəng uzlaşır.

Xəzər Atlantidasının saxsı qablarında geniş rast gəlinən əlamətlərdən



10

specialized in manufacturing plates. In general, name of Yusif is quite often met on the pottery discovered from both Bandovan I and II sites, which means that in Gushtasfi region of Shirvan, the mentioned master had been the most popular representative of local pottery school.

When it comes to artefact dating, specialists believe that they all had been manufactured back in XI-XII centuries, i.e. at the height of the socioeconomic and cultural development of Azerbaijan during IX-XIII centuries. Handicraft artefacts, especially earthenware items, do clearly reflect the way of thinking, world view, feelings and artistic taste of the people who had lived in the described period. Decoration of the period’s earthenware is generally characterized by harmonic and balanced combination of ornaments, calligraphy and paintings.

Another outstanding feature of the glazed earthenware discovered from the Caspian Atlantis, are the Tamgas impressed on the bottoms of their basements. Detected on both richly decorated and simple pottery items, tamga appears to be a typical earthenware decoration element in all medieval monuments of Azerbaijan. Although researchers haven’t yet come to a concrete conclusion as to the meaning of particular tamgas, appropriately sealed pottery items had been discovered from a number of archaeological sites, including Ganja, Gabala, Shamakhi, Baku, Shabran, Beylagan, etc. In Beylagan and Gabala, archaeologists even

biri də oturacaqlarının alt tərəfdən damğalanmasıdır. Bu Azərbaycanın digər orta əsr abidələrindən tapılmış həm zəngin, həm də sadə şirli saxsı qabları üçün səciyyəvi haldır. Lakin onların təyinatı barədə tədqiqatçılar arasında yekdil fikir yoxdur. Damğalı qablar Gəncə, Qəbələ, Şamaxı, Bakı, Şabran, Beyləqan şəhərlərinin və başqa abidələrin arxeoloji qazıntılarından məlumdur. Beyləqan və Qəbələ qazıntılarında möhürlərin özlərinə də təsadüf edilmişdir. Belə möhürlərin əsas kütləsi həndəsi fiqurlar və göy cisimlərinin sxematik təsvirləri şəklində naxışlanmışdır.

Şirli qabların müəyyən hissəsini Səngi-Muğan adasının cənub buxtasından tapılmış XVII əsrin sadə və minalı qablarından ibarət daha nəfis nümunələr təşkil edir. Bunların arasında üzünə «mərmər suyu» çəkilmiş piyalələr də var. Xəzər Atlantidasının yadigarları arasında azlıq təşkil etməklə yanaşı, onlar həm də natamam vəziyyətdə olmaları ilə diqqəti cəlb edirlər. Onlardan biri dulus çarxında nəfis şəkildə hazırlanmış kasa tipli qab parçasıdır (şəkil 10). Əsasən oturacaq və gövdənin bir hissəsindən ibarət olan bu qab parçasının gili çəhrayımtıl narıncı rəngdədir. Daxili səthində sarımtıl ağ və qəhvəyi rəngli zolaqlardan ibarət mərmər şəkilli naxışlar təsvir olunub. Fraqmentin hündürlüyü 6 sm, ağız diametri 17,5 sm, oturacaq diametri isə 7,5 sm-dir.

Xəzər Atlantidasının yadigarları içərisində çini və saxsı, habelə Çin və İran istehsalı olan seladon qablara rast gəlmək mümkündür. Ən nəfis nümunələr, təbii ki, çini qab-

discovered stamp bodies themselves. The most of these bodies are decorated with geometric figures and schematic pictures of celestial bodies.

Certain part of the earthenware collection is constituted by the elegant XVII century artefacts discovered from the southern bay of Sangi-Mughan Island. Consisting of both simple and enamel covered items, this part of collection also includes bowls covered with a "marble water". One of these rare and mainly broken artefacts is the fragment of finely worked earthenware bowl (Picture 10), consisting of basement and part of the bowl's body, both made from a brownish-orange clay. Inner surface of the artefact is decorated with white and coffee-coloured stripes that remind of the marble patterns. The fragment has a height of 6 cm, mouth diameter of 17.5 cm and base diameter of 7.5 cm.

Among Caspian Atlantis artefacts, there are also porcelain and faience pottery items, as well as celadon dishes from China and Persia. The most interesting exemplars of this kind are of course the whole pieces or fragments of porcelain dishes, mainly discovered from the seafloor of Amburan (Kohna Bilgah). One such item is decorated with blue-coloured paintings of humans and clouds. Made from the white clay, the artefact is 2 cm tall, 11.7 cm long and 6 cm wide. Other similar artefacts of the collection are mainly decorated with floral and zoomorphic ornaments (Picture 11).

In the collection, there also sever-



11

lar və ya onların fraqmentləridir. Bu cür qabların nümunələri daha çox Amburanın (Köhnə Bilgəhin) sahil suları altından tapılmışdır. Həmin nümunələrdən birinin açıq mavi fonu üzərində tünd göy rəng ilə insanlar və buludlar təsvir olunub. Gili ağ rəngdə olan bu fraqmentin hündürlüyü 2 sm, uzunluğu 11,7 sm, eni isə 6 sm-dir. Digər fraqmentlərdə isə daha çox nəbati və zoomorf təsvirlər üstünlük təşkil edir (şəkil 11).

Xəzərin sularından azad edilmiş, orta əsrlərin ən gözəl yadigarlarından sayılan seladon qablar da öz nəfis tərtibatı ilə göz oxşayırlar. Bu qablardan biri Bilgəh sahillərindən tapılmışdır (şəkil 12). Haqqında bəhs olunan həmin qab bulud tipli olub, demək olar ki, tam vəziyyətdədir. Nisbətən qalın divarlıdır. Hər iki səthi yaşıl rəngdədir. Daxili səthi qabarıq nəbati naxışlarla bəzədilmişdir. Xarici səthi isə saya və hamardır. Qabın oturacağı alçaq dabanlıdır. Onun ağzının diametri 37, oturacağının diametri isə 18 sm-dir.

al examples of celadon dishes – one of the most beautiful categories of medieval handicrafts, renowned for their outstanding design and beautiful decorations. One such artefact is an undamaged celadon dish discovered on the shore of Bilgah (Picture 12). The item has thick walls and thin basement. Its' outer surface is plain and smooth, while the inner one is decorated with floral ornaments. The artefact has a mouth diameter of 37 cm, and basement diameter of 18 cm.

*Building ceramics.* Another category of discovered earthenware artefacts are the building ceramics, including bricks, tiles and pipes. The most widespread type of building ceramics are the baked and raw bricks. There are only baked brick samples discovered in the Caspian Atlantis.



12

All of these well-kilned artefacts have square shapes and reddish-orange colour. These bricks could had been used for the construction of different buildings. One sample discovered in 1971 on Bandovan I site is 25 cm long, 25 cm wide and 5.5 cm thick.

Tile artefacts are divided into two groups according to their artistic decoration. Some of them are plain,

*İnşaat keramikası.* Saxsı məmulatın digər qrupunu inşaat keramikası təşkil edir. Bu qrupa kərpiclər, kaşılar və su tüngü daxildir. İnşaat keramikasının ən geniş yayılmış nümunələrindən birini kərpiclər təşkil edir. Kərpiclər bişmiş və çiy olmaqla iki qrupa ayrılır. Xəzər Atlantidasının saxsı yadigarları arasında yalnız bişmiş kərpiclər yer almışdır. Yaxşı bişirilmiş bu kərpiclər yastı kvadrat formalı olub, qırmızımtıl narıncı rəngdədirlər. Onlardan müxtəlif təyinatlı binaların inşasında istifadə oluna bilərdi. 1971-ci ildə I Bəndovan ərazisindən tapılmış nümunələrdən birinin uzunluğu 25 sm, eni 25 sm, qalınlığı isə 5,5 sm-dir.

Kaşılara gəldikdə, bu inşaat keramikasını bədii tərtibatına görə iki qrupa ayırmaq olar. Onların bir qismi saya, digər qismi isə təsvirlidir. Saya kaşıların səthi firuzəyi boya ilə örtülmüşdür. Müxtəlif təsvirlərlə bəzədilmiş kaşılar isə daha nəfis olub, öz naxışlarının zənginliyinə görə seçilirlər. Azərbaycanda kobalt filizinin külli miqdarda olması və bu dövrdə ondan firuzəyi şir üçün səmərəli istifadə edilməsi nəticəsində xüsusi kaşıların istehsalı genişlənirdi. Çünki kaşılardan sarayların, məscidlərin fasadlarına, buxarılara və sobalara üzlük çəkilməsində, eləcə də tikililərin daxili tərtibatının bəzədilməsində geniş istifadə edilirdi.

Xəzər Atlantidasının nadir yadigarlarından birini su tüngü təşkil edir. Hamar və saya səthə malik olan tüng boruşəkilli olub, sarımtıl narıncı rəngdədir. İnşaat keramikasının bu sonuncu nümunəsinin uzunluğu 34, diametri isə 6,5-9,8 sm-dir.

and others are decorated. Plain tile surfaces are painted with turquoise colour, while decorated tiles are more delicately designed and decorated with beautiful ornaments. Plenty of cobalt deposits in Azerbaijan had favoured production of special tiles coated with turquoise enamel. Such tiles had been widely used on the facades of palaces and mosques, on the outer walls of fireplaces and ovens, and in the interior design of the buildings.

One of the rare artefact types discovered in the Caspian Atlantis, are the ceramic water pipes. These tubiform yellowish-orange artefacts have smooth plain surfaces, length of 34 cm and diameter of 6.5-9.8 cm.

## Metallic artefacts

*Brassware.* Another group of the Museum’s underwater collection are the metalwork artefacts made from copper and iron. One part of the brassware collection is represented by jewellery items, e.g. beads and fragments of bracelets and rings.

Another copperware category are the fragments of tableware items, lids, chain particles, handles, key rings, etc. Crockery fragments are shaped as thin boards. The most interesting artefacts of this kind are the pot, jug and frying-pan like dish.

The pot has a widening out cylindrical body (Picture 13), flat bottom and two hook-shaped handles that are stretched through the loop. Both pot surfaces are flat and plain. Unlike the outer surface, the inner

## Metal yadigarlar

*Mis əşyalar.* Sualtı kolleksiyasının digər qrupunu metal məmulatı təşkil edir. Metal məmulatı da mis və dəmir əşyalar olmaqla iki qrupa ayrılır. Mis əşyaların bir hissəsini bilərzik və üzük fraqmentlərindən, eləcə də muncuqlardan ibarət bəzək nümunələri təşkil edir. Bəzək nümunələri dir.

Mis əşyaların digər hissəsini qab, qapaq, zəncir hissələri, qab qulpu, halqa və digər əşya hissələri təşkil edir. Qab hissələri əsasən nazik lövhə şəklindədirlər. Məişətdə istifadə edilmiş maraqlı nümunələrdən biri qazan, bardaq və tavaya oxşar qabdır.

Qeyd olunan qazanın gövdəsi silindrik şəkilli olub, aşağıya doğru enlənir (şəkil 13). Oturacağı yastıdır. İki tərəfində ilgəyə keçirilmiş halqavari qulpları var. Qazanın hər iki səthi hamar və sayadır. Xarici səthindən fərqli olaraq, daxili səthi qara rəngə çalır. Ölçüləri – hündürlüyü 19 sm, ağız diametri 25 sm, oturacaq diametri isə 31 sm-dir.

Mis məmulatın sonuncu qrupunu numizmatik materiallar – Qırxçıraq (Salyan rayonu) abidəsindən tapılmış sikkələr təşkil edir; saxlanma vəziyyətləri kafidir. Məlumata görə kiçik mis pullar üzərində qoruyucu, həmayil funksiyasını daşıyan toxunma naxışlar olub. Oxşar naxışlara həmçinin I Bəndovanın şirli qablarında, eləcə də onların oturacaqlarındakı damğalarda rast gəlinib. Daha bir maraqlı tapıntı XVIII əsrin sonu-XIX əsrin əvvəlinə aid 5 qəpiklik mis pullardır. Həmin pul-



13

surface is coloured black. The pot has a height of 19 cm, mouth diameter of 25 cm and base diameter of 31 cm.

The last brassware category includes numismatic materials – averagely preserved coins from Girkhchirag site in Salyan. These copper coins are covered with knitted ornaments, intended to protect coins from counterfeiting. Similar ornaments were detected on surfaces and Tamgas of the glazed earthenware items discovered on Bandovan I site.

Another interesting finding are the five-kopeck coins from late XVIII – early XIX centuries, discovered in 1982 from the Baku Bay's seafloor. These artefacts were collected from remains of a ship which had presumably exploded or burned, and sank when transferring monthly wages to the participants of the one of Russian-Persian or Russian-Turkic wars.

*Ironware*. Second group of discovered metallic works are the artefacts made from the iron, including X-XIV and XVIII-XIX century anchors detected in 1983 and 1986 on the seafloor of Sangi Mughan Island.

lar 1982-ci ildə Bakı buxtasında sualtı axtarışlar aparılarkən XIX əsrin birinci rübündə Rusiya-İran və Rusiya-Türkiyə müharibələrində iştirak etmiş əsgərlərə məvacibin aparıldığı, görünür güclü partlayış və ya yanğın nəticəsində batmış rus gəmisinin qalıqları arasından tapılmışdı.

*Dəmir əşyalar*. Tapılmış metal məmulatın ikinci qrupunu dəmir əşyalar təşkil edir. Bu qrupa 1983 və 1986-cı ildə Səngi Muğan adasının akvatoriyasında tapılmış, bir qismi X-XIV, digər qismi isə XVIII-XIX əsrlərə aid metal lövbərlər də daxildir. Onların dövrlərinə gəldikdə aiddir. 1983-cü ildə Səngi-Muğan adası yaxınlığında tapılmış XVIII-XIX əsrlərə aid lövbər, (şəkil 14) iki qarmaqlı olub, yuxarısında ilgək rolunu oynayan dairəvi dəliyi var. İlgəkdən dəmir halqa keçirilmişdir. İlgəkdən aşağıdakı ikinci dəlikdən isə bir ucu əyilmiş və hər iki sonluğu kürə şəklində tamamlanan mil keçirilmişdir. Lövbərin səthi saya olsa, bəzi yerlərində yazılar var. Hündürlüyü 96, qarmaqdan-qarmağa eni 60 sm-dir.

Dəmir lövbərlərlə yanaşı onların əsasən bir neçə, bəzən isə dörd uzunsov halqadan ibarət iri və ağır zəncir hissələri də tapılmışdır.

Sualtı arxeoloji axtarışlar zamanı tapılmış maraqlı nümunələrdən bir də abordaj qarmağıdır. Bu qarmaq XVII əsrdə Stepan Razinin başçılıq etdiyi Don kazakları tərəfindən istifadə olunmuşdur. Ümumiyyətlə, suyun dərinliklərindən tapılmış digər gəmi avadanlıqları Xəzər dənizində

XVIII-XIX century anchor (Picture 14) has two arms. In the anchor's head there is a round hole, through which an iron ring is passed. On the top of the shank there is a second hole with movable stock. One side of the stock is bent, and there are balls attached to the both of its' edges. Although the anchor's surface is generally plain, some of its' parts are covered with inscriptions.



14

The anchor is 96 cm long and 60 cm wide, if measured between two arms. Besides anchor, anchor chains consisting of several, sometimes four rings were also discovered.

Another interesting finding is the XVII century grapnel, which had been used by the Don Cossack

gəmiçiliyin tarixinin öyrənilməsi baxımından qiymətli mənbələrdir. Gəmi avadanlığına daxil olan daha bir maraqlı tapıntı kənarı dəmir zolaqla halqa şəklində əhatələnmiş iki ədəd ağac şkotdur (şəkil 15). Onlardan biri tam vəziyyətdədir. Həmin şkotun dəmir halqası tam qapanmamış, sonluqları kor bucaq şəklində xaricə doğru qatlanaraq qarşı-qarşıya durmuş vəziyyətdədir. Sonluqların hər ikisində dairəvi dəlik var. Şkotun ağac əsasında isə qövsvari şəkildə üç dairəvi dəlik açılmışdır. Dəliklər iri olub, ağac əsasın kənarı boyunca yerləşmişlər.

Dəmir əşyaların bir hissəsini mismarlar təşkil edir. Qırxçıraqdan tapılmış bu mismarların hamısı yarımçıq və paslı vəziyyətdədir. Lakin Qırxçıraq tapıntıları arasında bir ədəd dəmir ox ucluğu, eləcə də mərmilər və sınıq tüfənglər də vardır.

## Daş yadigarlar



15



16

squad led by Stepan Razin. Shipboard equipment discovered from the Caspian seafloor, constitutes a valuable source for the researchers of the history of Caspian shipping. Another interesting finding is a pair of wooden sheets with iron-made framework (Picture 15). One sheet is preserved as a whole. Opposite edges of the iron framework are folded outwards at an obtuse angle. There are balls attached to both edges of the sheet. In the wooden part of the item there are three bow-shaped holes opened along the sheet's margin.

Another type of the ironware artefacts are the nails discovered from Girkhchirag site. All nails are broken and rusty. Among findings, there are also one iron-made arrowhead, round shots and broken rifles.

## Stoneware

The next group of the collection's artefacts is represented by stone implements, including hand-mills (kirkira), grindstones, ground stones,

Kolleksiyadaolantapıntılarındigər qrupunu daş məmulatı təşkil edir. Buraya əl dəyirmanları (kirkirə), bülöv, sapand, dən daşları və s. daxildir.

Bunlardan sayca ən çoxu əl dəyirmanlarıdır. Dairəvi formada, alt və üst olmaqla iki hissədən ibarət olan bu dəyirmanların xarici səthləri nisbətən nahamar olsa da, daxili, yəni işlək səthləri hamardır. Belə əl dəyirmanlarından biri Şıxov ərazisindən tapılmışdır (şəkil 16). Əl dəyirmanının üst daşı olan bu tapıntının mərkəzində dəlik açılmışdır. Kənarında ağac tutacaq üçün oyuq yeri var. Dairəvi formada olsa da, nisbətən kobud və asimmetrikdir. Diametri 43, qalınlığı isə 10 sm-dir. Hesablamalara görə, gün ərzində ailənin tələbatını ödəmək üçün sadə dən daşlarında təxminən 5-6 kq dən üyütmək mümkün olurdusa, dairəvi dən daşlarında üyüdülən unun miqdarı 15-16 kq-a çatırdı. Azərbaycanda arxeoloji qazıntılar zamanı tapılan bir neçə əl dəyirmanı daşının tarixi e.ə. III-b.e. V əsrinə aiddir. Müşahidələr və müqayisəvi təhlil Azərbaycanda minilliklər boyu əl dəyirmanlarının quruluşu və istifadə qaydalarında elə bir əsaslı dəyişiklik baş vermədiyini, XIX əsr-XX əsrin əvvəllərində də belə kirkirələrdən ailənin ehtiyacını ödəmək üçün istifadə olunduğunu təsdiq edir.

Xəzər Atlantidasının daş yadigarları arasında 1985-ci ildə Köhnə Bilgəhin sahil ərazisindən tapılmış gəmi takelajına aid daş lövbər də vardır (şəkil 17). Daş lövbərlər Köhnə Bilgəh ərazisində Xəzər dənizinin dərinliklərindən quruya çıxarılmışdı.

etc. Majority of the group's artefacts are hand-mills, which consist of two pieces with rough outer and plain inner (working) surfaces. One part of such artefacts was discovered in Shikhov (Picture 16). Representing an upper piece of a hand-mill, the item has a hole opened in its' center, and a hollow caved on its' top for placing a wooden handle. The item is round, but relatively rough and asymmetric with 43 cm diameter and 10 cm thickness. According to estimations, if a regular hand-mill could process 5-7 kg of grains per a day, the round hand-mill were able to process 15-16 kg for the same period of time.

Several stone hand-mills which had been discovered from the archaeological sites of Azerbaijan, are dating back to III century B.C. – V century A.D. As suggested by the results of observations and comparative research, neither the structure nor the operation methods of hand-mills had seriously changed through the centuries, and people continued using such mills right until the end of XIX – beginning of XX centuries.

Another example of locally dis-



17



18

VI-XII əsrlərə aid edilən lövbər qalın ovalvari lövhə formasındadır. Onun üzərində açılmış iki dəlikdən biri kvadrat, digəri isə dairəvi formadadır. Lövbərin qalan səthi nahamar və sayadır. Saxlanma vəziyyəti tam olan bu lövbərin uzunluğu 70 sm, eni 53 sm, hündürlüyü 114 sm, dairəvi dəliyin diametri isə 8 sm-dir.

Qırxçıraq materialları arasında bir ədəd mərmər kürə də var. Ağ mərmərdən yonularaq səliqəli hazırlanmış, diametri 6 sm olan bu kürənin təyinatı haqda fikir müxtəlifliyi var. Onun sapand daşı kimi istifadəsi istisna olunur. Belə ki, mərmər Şirvan bölgəsi üçün səciyyəvi süxur olmadığı üçün, onun buraya kənardan gətirilmə ehtimalı var. Ehtimal ki, bu kürədən hər hansı bir oyun zamanı istifadə edildiyini düşünmək olar.

## Şüşə yadigarlar

Sualtı arxeoloji kolleksiyanın şüşə məmulatı əsasən qab və bilərzik hissələrindən ibarətdir. Əksəriyyəti xarici ölkələrin istehsalı olan bu qablar az saydadır. Əsasən üfürmə və kəsmə üsulu ilə hazırlanmış,

covered stone artefacts is the stone anchor of VI-XII century ship's rigging, discovered in 1985 on Kohna Bilgah site (Picture 17). The anchor represents thick and oviform plate, with the length of 70 cm, width of 53 cm and height of 114 cm. On its' generally flat and plain surface, there are one square and one round holes. Diameter of the round hole is 8 cm.

Among artefacts discovered from Girkhchirag site, there is one sphere made from white marble. Intended use of this delicately worked item with diameter of 6 cm is not totally clear. It's not unlikely that the sphere had been used as a shot or a playing ball. Considering that there are no marble deposits in the region of Shirvan, it is alleged that the sphere had been produced somewhere else.

## Glass

Glass items of the underwater archaeological collection are mainly represented by crockery and trinket fragments. The group's smallest category are crockery items, originating mainly from abroad. Manufactured

açıq yaşıl, mavi və s. rənglərdən ibarət nümunələri mövcuddur.

Belə qablardan biri en kəsiyi üçbucaq şəkilli olan flakondur (şəkil 18). Rusiya istehsalı olan bu şəffaf qabın tinləri dişciklidir. Ağız hissəsi tamamilə sınıb. Xarici səthinin üzərinə qabarıq hərflərlə "Р.КЕЛЕРЪ и К°. Москва" sözləri yazılmışdır. Hündürlüyü 14 sm, uzunluğu 5,8 sm, eni isə 5 sm olan, XIX əsrə aid edilən bu qab Azərbaycan-Rusiya ticarət əlaqələrini təsdiq edən əşyavi mənbə rolunu oynayır.

Bəzəklər əsasən en kəsikləri dairəvi və yarımdairəvi formada olan qara rəngdə şüşə bilərziklərdir. Forma baxımından bu bilərziklər vintşəkilli burma və ya düzdür. Bu müxtəliflik bədii tərtibatda da özünü büruzə verir. Bəzi vintşəkilli nümunələr qoşa və ya tək ağ xətlərlə əhatələnib. Orta əsr qadınlarının əsas bəzəklərindən olan şüşə bilərziklərin oxşar nümunələri Azərbaycanın digər orta əsr şəhər yerlərindən də məlumdur.

## Sümük yadigarlar

Xəzər Atlantidası yadigarlarının sayca ən kiçik hissəsini sümük məmulatı təşkil edir. Qırxçıraq ərazisindən tapılmış sümük oxçu üzüyü maraqlı tapıntılardandır (şəkil 19). Halqanın bir hissəsi enli olub, irəliyə doğru çıxıntılıdır. Ensiz hissəsi sınmışdır. Onun hər iki səthi tamamilə hamar və sayadır; hündürlüyü 0,5 sm, diametri isə 2,7 sm-dir. Mütəxəssislər tərəfindən XIII-XIV əsrlərə aid edilən bu tapıntıya əsasən həmin dövrün sümükişləmə



19

by blowing and cutting techniques, these items are made from light-green, blue and differently coloured glass.

One such artefact is a rectangular transparent scent-bottle with cogged corners and completely broken mouth (Picture 18). This 14 cm high, 5.8 cm long and 5 cm wide bottle had been produced in XIX century in Russia, and has the producer's name ("Р.КЕЛЕРЪ и К°. Москва") written on its' outer surface. The artefact serves as a material evidence of the historical trade relations between Azerbaijan and Russia.

Trinkets are mainly represented by black-coloured glass bracelets with round and hemispherical profiles and spiral or straight shapes. Some spiral bracelets are decorated with twin or single white stripes. Being one of the major women adornments, similar trinkets had been found in the other medieval towns of Azerbaijan.

## Ivory artefacts

The rarest part of the collection are the ivory items. The most interesting artefact of this kind is an archer's ring (Picture 19) discovered on Girkhchirag site. The ring has one narrow and one wide side with projection. The narrow side is broken. Both

sənətinin səviyyəsi haqqında müəyyən təsəvvür əldə etmək mümkündür.

## Sonda...

Beləliklə, uzun illərdən bəri xüsusi qayğı ilə qorunan bu sənətkarlıq nümunələri klassik orta əsrlərdən XIX əsrin sonlarına qədər uzanan böyük zaman kəsiyində Azərbaycanda sənətkarlıq və təsərrüfatın yüksələn xətlə inkişaf etməsini əyani şəkildə təsdiq etməklə yanaşı, həmin dövrdə mövcud olan mədəni və ticari əlaqələr haqqında da dolğun təsəvvür yaradır. Digər tərəfdən bu tapıntılar xalqın məişətində, dini və fəlsəfi dünyagörüşündə ənənəlik və yeniliyin öyrənilməsi baxımından da əvəzsiz yadigarlardır. Bu materiallar, bununla yanaşı dulusçuluq, daşişləmə, metalişləmə, sümükişləmə və digər sənətkarlıq sahələrində tətbiq olunan üsul və vasitələri müəyyən etmək baxımından da olduqca vacib mənbə rolunu oynayırlar. Əlavə olaraq onu qeyd etmək lazımdır ki, təqdim edilmiş tapıntıların bir qismi Xəzər dənizində gəmiçiliyin tarixini öyrənmək üçün sanballı məxəzdir.



surfaces are completely flat and plain. The ring has a height of 0.5 cm and diameter of 2.7 cm. Dating back to XIII-XIV centuries, the ring is useful in terms of forming an understanding of the given period's ivory works.

## Conclusion

For years, described artefacts of the collection have been preserved with special care and delicacy, and now they are here both to reflect continuous development of the Azerbaijani arts and economy, covering the long period between classical Middle Ages and XIX century, and to give picture of the period's cultural and trade relations. On the other hand, these findings are very valuable in terms of learning the people's everyday life, religeous views, philosophy and world outlook. Also, they represent valuable source of information for studying the methods and tools that had been used in earthenware, stoneware, metalware and ivory production. Finally, some of these findings are useful in terms of studying the history of Caspian shipping.



V. Kvaçidze və ekspedisiya üzvü yeni sualtı tapıntıları nəzərdən keçirərkən.

V. Kvachidze and member of expedition.
While reviewing new underwater archeological finding



V. Kvaçidze sualtı arxeoloji tapıntıları tədqiq edərkən.
V. Kvachidze. While exploring underwater archaelogical finding.

# XƏZƏR ATLANTİDASI YADİGARLARI

## SOUVENIRS FROM CASPIAN ATLANTIS